*İsmayıl Xanlar*



## *Qaşla göz arasında*

Havanın ən gec
qaraldığı fəsildi.
Göydə yorulan günəşin
ayağı tir-tir əsirdi.

Uşaqlar getdi evə
Köhnə futbol topumu
aldım mən də əlimə,
Qalxdım, öz mənzilimə

"Niyə gecikmisən?"-lərə
çoxlu yalanlarım var.
Qapımızın önündə,
suyu şirin gəlməyən
çoxlu ayaqqabı var.

Uşaq olanda nə olar?
uşaq kimi sevindim.
Yenə qonaqlar gəlib,
yeni qonaqlar gəlib.
Əllərində hədiyyə,
dildə soraqla gəlib.

Zəngi vurdum,
döydüm qapını,
aşağı endi cəftə.

Beş saatın içində
gördüm qocalıb anam.
Uzaqlardan məktub yox,
Ölü gəlmişdi atam.

## *Teatr*

Dədə Qorqud, qopuzun
İndi olub gitara.
Çalxalanır səsiylə
Bakı, Ankara, Buxara.

Bir bəri bax, de görüm
Sən hara, bura hara?
Min illər sonra səni
Hansı dərd atıb bura?

Yoxsa eşitmisən ki,
Novruz gəlir, yaz gəlir.
Turist adıyla bizə
Beş-on nəfər fars gəlir.

Dədə, deyim, sən də bil
Day onlar da az gəlir.
Qiymətlər ərşə qalxıb,
Ağı deyim, saz gətir.

Bura haradı gəlmişəm?
Tonqaldan atdanmadım,
Duruxdum, atlar hanı?
Sən də heç o deyilsən
Bəs niyə var ayağında
bahalı ayaqqabı?

Tamaşa bitdi, dədə
Düşdü saqqalın yerə.
Sən demə, aktyorsan
Mən səhv salmışam yenə.

***

And olsun atların ayağınnan qalxan torpağa
And olsun sonsuz boşluğa,
qaranlıq kosmosa.
And olsun zərrələrin rəqsinə,
ulduzların ahənginə.
And olsun yoxluğun sükutuna,
varlığın bəhanəsinə
And olsun kainatın qulaqlarından
hələ də getməyən
partlayışın təranəsinə.
And olsun Əncirə,
And olsun Zeytuna
Nuhun tufanından qurtulan
Qocaman ağac qədər yorğunam, İlahi.

Deyirlər ki,
şah damardan da yaxınsan bizə
Altı yaşlı uşağın
boğazından vurdular dünən.
Çox qorxdum vallah
sənə bir şey olmadı ki, Allah?

Ədalət 2019.- 6 aprel.- S.14.